# “Kitab bayramı—2016”

Şəhərimizin “Heydər Əliyev” parkında Qəbələ rayon Mərkəzi Kitabxana Sisteminin (MKS) təşəbbüsü ilə “Kitab bayramı—2016” keçirildi.

Tədbirdə MKS-nin kollektivi ilə yanaşı, rayon ictimaiyyəti və Mədəniyyət Nazirliyindən dəvət olunan qonaqlar da iştirak edirdilər.

Tədbiri Qəbələ rayon Mədəniyyət və Turizm şöbəsinin müdiri Nargilə Qafarova açdı. O, kitabxana işinin yaxşılaşdırılması üçün görülən işlər haqqında məruzə etdi.

Sonra söz Qəbələ Rayon İcra Hakimiyyətinin nümayəndəsi Azər Şirinova verildi.



Azər Şirinov kitab bayramı münasibətiylə tədbir iştirakçılarını rayon icra hakimiyyətinin rəhbərliyi adından təbrik etdi və son günlərdə Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olan vətənpərvər oğullarımızdan və ordumuzun düşmənə verdiyi layiqli cavabdan danışdı.

Çıxış üçün söz nazirliyin kitab dövrüyəsi sektorundan gəlmiş qonaqlara verildi. Çıxış edən qonaqlar qeyd etdilər ki, bu günkü, kitab bayramında kitaba olan marağı və bu gün kitabsevərlərin hələ də geniş auditoriyaya malik olduqlarının şahidi oldular. Eyni zamanda qonaqlar yeni elektron kitabxana və elektron kartıckaların və kartatekaların hazırlanması, kitabxana web saytların fəaliyyətinin gücləndirilməsi oxucu ilə kitab arasındakı yaxınlığı daha da artıracaqlarını söylədilər.

Tədbirdə MKS-nin fəal işçiləri çıxış etdilər.

Tədbir vətənə aid musiqi sədası ilə davam etdi. Tədbirdə kiçik məktəblilər də vətənpərvərlik mövzusunda şeirlər söylədilər.

Tədbirimizdə çox qədim keçmişdən bu günə səfər eyləyən qonaqları da vardı. Elə bunlardan biri 1300 illik tarixi olan Dədə Qorqud idi. O, tədbirdə kitab haqqında öz töfhələrini səsləndirdi və kitabsevərlərə kitaba daha da bağlı olmağı tövsiyə etdi.

Maraqlı əl işlərinin də sərgiləndiyi güşələrdə kişik yaşlı uşaqların necə vətənpərvər ruhda böydükləri hiss olunurdu. Onlar öz sehirli fırcaları ilə bu gün və gələcəkdə vətənimizə dayaq olduqlarını hiss etdirməyi bacarmışdılar.

**Xalidə Məmmədova,**
**MKS-nin şöbə müdiri.**
**Foto S. Umuyevindir.**

# Şuşanın işğalından 24 il keçdi

Xocalı soyqırımını törədən ermənilər cəzasız qaldıqlarından öz vəhşi hərəkətlərini davam etdirirdilər. Növbəti hədəf Şuşa və Laçın idi. Bu şəhərlər də siyasi oyunların, çəkişmələrin, xəyanətin qurbanı oldu.

Şuşaya ermənilərin hücumu gözləndiyindən yaranmış vəziyyət 1992-ci ilin martında Respublika Müdafiə Şurasının iclasında müzakirə olunmuşdu. Lakin əməli iş demək olar ki, görülmürdü. Şəhər uzun müddət idi ki, mühasirədə idi. Lazımi silah və sursatla təmin olunmurdu. Rusiyanın 336-cı polkunun 180 hərbi mütəxəssisinin 90 ağır hərbi texnika ilə ermənilər tərəfinə keçməsi faktı da məlum idi. Şuşanın müdafiəsində isə cəmi 24 ağır texnika dururdu. Düşünülmüş müdafiə planı yox ildi. Xarici qüvvələrin əlində oyuncağa çevrilmiş müdafiə naziri burada vahid komandanlıq yaradılmasına mane olur, bununla da hərbi-siyasi vəziyyəti daha da dərinləşdirirdi. Hücum ərəfəsində xeyli döyüşçü qısa müddətli ezamiyyətə buraxılmışdı. Şəhərdə cəmi 500 döyüşçü qalmışdı. Belə bir şəraitdə Şuşaya gedən yollardakı minalar zərərsizləşdirildi. Mayın 9-da səhər saat 5.00-də şəhər ətrafında olan postların əksəriyyəti artıq tutulmuşdu. Ön mövqedə duran əsgərlər düşmənə qarşı qəhrəmanlıqla vuruşurdular. Səhərə yaxın düşmənin üç tankı şəhərə daxil olsa da, onlardan biri vuruldu, digərləri isə geri qayıtdılar. Qayabaşı adlanan yerdə mövqe tutmuş müdafiə batalyonunun əsgərləri son nəfəsədək vuruşdular. 40 nəfər şəhid oldu. Mühasirəyə düşmüş 38 nəfər döyüşçü düşmən əlinə keçməmək üçün özünü öldürdü. Digər müdafiə dəstələri axşama qədər müqavimət göstərdilər. Qüvvələr tükəndi və axşama yaxın Şuşa süqut etdi.

**«Qəbələ».**

## Daxili işlər orqanlarına sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbul ELAN EDİLİR

Daxili işlər orqanlarının sıravi və kiçik rəis heyəti vəzifələrində xidmətə qəbul üzrə 17.05.2016-cı il tarixdə saat 10⁰⁰-da Qəbələ rayon polis şöbəsində keçiriləcək sıra baxışında müddətli həqiqi hərbi xidmət keçmiş, ali və orta-ixtisas, yaxud tam orta təhsilli, boyu 175 sanimetrdən yuxarı, yaşı 20-dən 25-dək olan, özü və yaxın qohumları məhkum olunmamış, atletik cüssəli, Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Bununla yanaşı «İctimai asayişin qorunmasında vətəndaşların iştirakının təmin edilməsi barədə» Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 2 mart tarixli Fərmanının icrası çərçivəsində mülki işçi vəzifələrinə də Azərbaycan Respublikası vətəndaşlarının qəbulu ilə əlaqədar sıra baxışı keçiriləcəkdir.

Sıra baxışında müddətli həqiqi hərbi xidməti keçmiş, ali və orta-ixtisas, yaxud tam orta təhsilli, boyu 175 santimetrdən yuxarı, yaşı 20-24-dək olan, özü və yaxın qohumları məhkum olunmamış, Azərbaycan Respublikasının kişi cinsli vətəndaşlar iştirak edə bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

İnternet ünvan: www.mia.gov.az.

**Qəbələ RPŞ-nin əlaqə tel:** (024) 205 18 28, (024) 205 18 22.

**QƏBƏLƏ RAYON POLİS ŞÖBƏSİ.**


**«Qəbələ» qəzetinə**

**2016-cı ilin ikinci yarısı üçün abunə yazılışına başlanmışdır.**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

**Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.**

**Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.**

**Ünvan: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.**

**Telefonlar: (024)20 5-19-14, (024)20 5-15-56, mob. (050) 328-11-42.**


## ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 29 noyabr 1997-ci il tarixdə 26 №-li qərarla Aydınqışlaq kənd sakini **Cabbarov Xanlar Səməd oğlunun və ailə üzvlərinin** adına verilmiş JN:382 №-li (kodu 40608038) **Torpağa mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 may 1998-ci il tarixdə 10 saylı qərarla Qaradeyn kənd sakini **Əzimov İsmayıl Şahvəddin oğlunun və ailə üzvlərinin** adına verilmiş JN: 301 nömrəli (kodu 40610028) **Torpağa mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Daşınmaz Əmlakın Dövlət Reystri Xidmətinin 9 saylı ərazi idarəsi tərəfindən 17 oktyabr 2013-cü il tarixdə **Aslanov Yusif Bayram oğluna** verilən Qəbələ şəhəri G.Qarayev kücəsi 5-də yerləşən AA 00887 №-li, 406013013536 reystr nömrəli **Torpaq sahəsinin planı və ölçüsü haqqında** sənəd itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 dekabr 1997-ci il tarixli 27 saylı qərarına əsasən Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən Soltannuxa kənd sakini **Babayev Rasim Rəmzi oğlunun** adına verilmiş A 360901 nömrəli **Torpaq sahəsinin planı və ölçüsü haqqında** sənəd itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

«Qəbələ» qəzetinin kollektiv iş yoldaşları **Qüdrət Səmədova,** qardaşı

**MÜRSƏL SƏMƏDOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi:
A. C. Cəlilov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir. Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2100.
Oxucu məktubları geri qaytarılmır.